# Qarabağ Universiteti Azərbaycan təhsilinin rəmzlərindən olacaq




Üç ildir ki, işğaldan azad olunmuş bütün torpaqlarda bərpa-quruculuq işləri sürətlə davam edir. Bununla yanaşı, keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma el-obalarına qayıdışı həyata keçirilir.

Təbii ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na qısa müddətdə başlanılması Qarabağda və Şərqi Zəngəzurda görülən sürətli quruculuq işlərinin nəticəsidir. Həmin ərazilərdə əhalinin yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, infrastruktur bərpa edilir, yollar salınır, evlər tikilir, mədəniyyət abidələri restavrasiya edilir, təhsil, səhiyyə ocaqları istifadəyə verilir.

Sentyabr ayında Qarabağda keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycanın bütün ərazilərində suverenliyinin təmin edilməsi, separatçı qüvvələrin təslim olması ilə Xankəndi də azadlığına qovuşdu.

Bu günlərdə isə daha bir tarixi anlar yaşayırıq. Prezident İlham Əliyevin sərəncamına əsasən, vaxtı ilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılacaq.

Xatırladaq ki, Qarabağ regionunda ilk ali təhsil ocağı Xankəndidə yaradılıb. Bu ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi fəaliyyətə başlasa da, Ulu Öndər Heydər Əliyevin təşəbbüsünə əsasən filial Azərbaycan Nazirlər Sovetinin 28 noyabr 1973-cü il



tarixli qərarı ilə müstəqil ali məktəb - Xankəndi Pedaqoji İnstitutu kimi fəaliyyətini davam etdirib. 1988-ci ildə millətçi ermənilərin açıq müstəvidə torpaq iddiasına başlamaları, iğtişaşlar törətmələri və vəziyyətin getdikcə dramatikləşməsi bu təhsil ocağının Xankəndidə fəaliyyətini dayandırması ilə nəticələnib.

Bu gün isə Azərbaycanın əzəli torpağı - Qarabağ azaddır. İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarır. Bütün bunlar nəzərə alınaraq kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndidə Qarabağ Universiteti təsis edilir.

Qarabağda yerləşən ali təhsil ocağı gün gələcək ki, dünyanın ən qabaqcıl universitetlərindən birinə çevrilərək, adı dillər əzbəri olacaq.

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ Universitetinin yaradılması müasir tariximizin ən əhəmiyyətli hadisələrindən biridir.

İşğaldan azad olunmuş torpaqlarımız dirçəldikcə, həmin ərazilərə Azərbaycan ruhu, təhsili, elmi, mədəniyyəti yenidən qayıdır: "Universitetin yaradılması həm də ona görə böyük tarixi əhəmiyyət daşıyır ki, orada yüksəkixtisaslı kadrlar hazırlanacaq, bölgənin inkişafında müstəsna rol oynayan layihələr həyata keçiriləcək. Xankəndidə yerləşən Qarabağ Universitetində gənc alimlər yetişdiriləcək".

M.Qasımlının fikrincə, Xankəndidə universitetin yaradılması həm də siyasi məna daşıyır. Bu, xaricdəki anti-Azərbaycan qüvvələrinin hərəkətlərinə dövlətimizin həm də elm və təhsil yolu ilə cavabıdır.

Komitə sədrinin müavini Qarabağ Universitetinin ölkəmizin ən qabaqcıl ali təhsil müəssisələrindən biri olacağına, dünyanın təhsil ocaqları cərgəsində özünəməxsus yer tutacağına inandığını ifadə edib. Vurğulayıb ki, bu universitet Azərbaycan elm və təhsilinin rəmzlərindən birinə çevriləcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 30 noyabr, № 261.- S.3.